# Xatirəsinin əbədiləşdirilməsi

**Əbdürrəhim bəy Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrı**

**Əbdürrəhim bəy Haqverdiyev adına poçt markası**

**Əbdürrəhim bəy Haqverdiyev adına küçə**

**Əbdürrəhim bəy Haqverdiyevin xatirəsinə abidəsi**

## Əbdürrəhim bəy Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrı



Ağdamda ilk teatr 1902-ci ildə yerli ziyalıların və Ə. Haqverdiyevin köməkliyi və yaxından iştirakı ilə yaradılmışdır. İki il gərgin işdən sonra 1904-cü ildə M.F. Axundovun "Sərgüzəşti-vəziri-xani-Lənkəran" və Ə. Haqverdiyevin "Dağılan tifaq" pyeslərinin tamaşaları ilə açılmışdır. Uzun illər ictimai əsaslarla fəaliyyət göstərmişdir.

1968-ci ildən Nazirlər Kabinetinin müvafiq fərmanı ilə Ə. Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrı olaraq fəaliyyətini davam etdirir.

# Əbdürrəhim bəy Haqverdiyev adına poçt markası




**2014-cü ildə Azərbaycan poçt markası nəşr edilmişdir.**

Azərbaycan realist ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyinin geniş şəkildə qeyd olunmasına dair Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 yanvar 2020-ci il tarixli Sərəncamına əsasən, ölkəmizin İndoneziyadakı səfirliyinin təşəbbüsü ilə "İndoneziya Poçt Dövlət Şirkəti" tərəfindən poçt markası nəşr edilib. 2014-cü ildə Azərbaycan poçt markası nəşr edilmişdir.

Poçt markasının üzərində "Şuşa Azərbaycan" yazısı və ədibin gənclik şəkli ilə yanaşı, arxa fonda "Şuşa qalası" təsvir olunub.

"İndoneziya Poçt Dövlət Şirkəti" ilə səfirlik arasında əldə olunmuş razılığa əsasən, sözügedən marka may ayı ərzində ölkənin mərkəzi və regional poçt şöbələrində dövriyyəyə buraxılıb.



# Əbdürrəhim bəy Haqverdiyev adına küçə

Bakı şəhərinin Yasamal rayonunda Bəxtiyar Vahabzadə və Şəhriyar küçələrinə paralel küçə. Küçə Azərbaycan yazıçısı, dramaturqu, ədəbiyyatşünası Əbdürrəhim bəy Haqverdiyevin adını daşıyır.

Küçənin başlanğıcı Yasamal rayon parkından (əvvəlki: Musabəyov parkı) başlayır. İki tərəfli hərəkət olmaqla geniş və təmirli küçədir. Başlanğıcdan sona doğru enişli olmaqla getdikcə kor bucaq üzrə sağa tərəfə dönür.

Küçədə hər iki istiqamətdə Marşurut avtobusları hərəkət edir. Ən yaxın metrostansiyası Elmlər Akademiyasıdır.






# Əbdürrəhim bəy Haqverdiyevin xatirəsinə abidə

